Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 22 ” dekabr tarixli
408 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Yerli icra hakimiyyəti başçısının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin**

# NÜMUNƏVİ NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Nümunəvi Nizamnamə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 4.1.4-cü yarımbəndinə uyğun olaraq yaradılmış, yerli icra hakimiyyəti başçılarının tabeliyində Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin (bundan sonra – Müəssisə) fəaliyyətini tənzimləmək üçün onların nizamnamələrinin hazırlanması və dövlət qeydiyyatından keçirilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Nümunəvi Nizamnamə hər bir Müəssisə üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.

1.3. Müəssisəni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti yaradır.

1.4. Müəssisə müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan hüquqi şəxsdir.

1.5. Müəssisənin müstəqil balansı, əmlakı, bank hesabı, üzərində özünün və tabe olduğu yerli icra hakimiyyəti orqanının adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Müəssisə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nümunəvi Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, digər normativ hüquqi aktları, tabe olduğu yerli icra hakimiyyəti orqanının əmr və sərəncamlarını və öz nizamnaməsini rəhbər tutur.

1.7. Müəssisə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə və digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.8. Qanuna uyğun olaraq Müəssisənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Müəssisə məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.9. Müəssisənin bütün payları dövlətə məxsusdur.

1.10. Dövlət Müəssisənin öhdəlikləri üçün cavabdeh deyildir və onun fəaliyyəti ilə bağlı zərər üçün Müəssisəyə verdiyi əmlakın dəyəri həddində risk daşıyır.

1.11. Müəssisənin Nizamnaməsində onun adı və yerləşdiyi ünvan göstərilir.

## 2. Müəssisənin fəaliyyət istiqamətləri

2.1. Müəssisənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsi üzrə xidmətlər göstərmək;

2.1.2. müvafiq ərazidə istehsalat və məişət tullantılarının yığılması və daşınması işini həyata keçirmək;

2.1.3. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini, habelə işıqlandırma işlərini yerinə yetirmək;

2.1.4. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Müəssisənin vəzifələri və hüquqları

3.1. Bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə və xidmət ərazisinə uyğun olaraq Müəssisənin vəzifələri aşağıdakılardır:

3.1.1. xidməti ərazisində yerləşən binalarda yaşayış və qeyri-yaşayış sahələrinin mühəndis texniki qurğularının saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, mənzil-kommunal infrastrukturunun inkişafı məqsədilə müvafiq tədbirlər görmək;

3.1.2. dövlət mənzil fondunun yaşayış və qeyri-yaşayış sahələrinin saxlanılmasını və idarə olunmasını həyata keçirmək, yaşayış binalarında yaşayış və qeyri-yaşayış sahələrinin təyinatı üzrə istifadəsinə nəzarət etmək;

3.1.3. istehsalat və məişət tullantılarının yığılması və daşınması işini həyata keçirmək, tullantılarla davranma qaydaları barədə şəxslərin məlumatlandırılması üçün tədbirlər görmək, habelə tullantıların yığılması, daşınması və yerləşdirilməsi sahəsində mövcud qaydaların pozulması hallarına qarşı mübarizə aparmaq;

3.1.4. yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini icra etmək və yaşıllıqların mühafizəsini, yeni yaşıllıqların salınmasını təmin etmək;

3.1.5. yaşayış məntəqələri ərazilərində və küçələrdə işıqlandırma işlərini yerinə yetirmək;

3.1.6. dövlət tədbirləri ilə bağlı müəyyən edilmiş marşrutlar üzrə küçələrin dekorativ elementlərlə və təsvirlərlə bəzədilməsi, o cümlədən bayraqların asılması və sonradan yığılması işini mərkəzləşdirilmiş qaydada təşkil etməklə, onların qorunub saxlanılması, uçotunun təşkili və təyinatı üzrə səmərəli istifadəsini təmin etmək;

3.1.7. yerli icra hakimiyyəti başçısı tərəfindən müəyyən edilən müvafiq plan və tapşırıqların icrasını təmin etmək;

3.1.8. fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.9. Müəssisəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.10. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.11. işçilər üçün sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək;

3.1.12. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.13. Müəssisənin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.14. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.15. istilik təsərrüfatı obyektlərinin işlək vəziyyətdə saxlanılmasını təmin etmək və onların istismarına nəzarət etmək (Naxçıvan Muxtar Respublikasına münasibətdə);

3.1.16. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Müəssisənin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.2. fəaliyyət istiqamətləri üzrə yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq ərazidə fiziki və hüquqi şəxslərlə bağlanılmış müqavilə əsasında onlara xidmət göstərmək və bununla bağlı xidmət haqqı almaq;

3.2.4. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı tədbirlər təşkil etmək və belə tədbirlərdə iştirak etmək;

3.2.5. Müəssisədə daxili intizam qaydalarını müəyyən etmək;

3.2.6. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Müəssisənin idarə olunması

4.1. Müəssisə öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir, aşkarlıq və şəffaflıq prinsiplərini əsas tutmaqla bu Nümunəvi Nizamnaməyə və öz nizamnaməsinə uyğun olaraq idarə edilir.

4.2. Müəssisənin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Müəssisənin ümumi yığıncağının iclasları növbəti və növbədənkənar ola bilər. Ümumi yığıncağın qərarları iştirakçıların açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir və protokolla rəsmiləşdirilir.

4.3. Müəssisənin ümumi yığıncağının səlahiyyətinə aşağıdakılar aiddir:

4.3.1. Müəssisənin Nizamnaməsinin və nizamnamə kapitalının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.3.2. Müəssisənin işçilərinin say həddinin və strukturunun müəyyən edilməsi;

4.3.3. Müəssisənin əməyin ödənişi fondunun, gəlir və xərclər smetasının təsdiq edilməsi;

4.3.4. Müəssisənin icra orqanının yaradılması, səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

4.3.5. Müəssisənin icra orqanının rəhbərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.3.6. Müəssisənin inkişaf və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;

4.3.7. Müəssisənin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi və mənfəətinin və zərərinin bölüşdürülməsi barədə qərarın qəbul edilməsi;

4.3.8. Müəssisənin xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Müəssisənin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərarın qəbul edilməsi.

4.4. Müəssisənin ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş məsələlərin bölgüsü Müəssisənin yaradılması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına uyğun olaraq həll edilir.

4.5. Müəssisənin fəaliyyətinə cari rəhbərlik təkbaşına icra orqanı olan direktor tərəfindən həyata keçirilir. Direktor Müəssisənin bütün fəaliyyət istiqamətlərinin nəticələrinə görə tam məsuliyyət daşıyır. Direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini direktor müavini, direktorun müavini olmadıqda isə səlahiyyətlərinin icrasının həvalə edildiyi digər vəzifəli şəxs həyata keçirir.

4.6. Direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.6.1. Müəssisənin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.6.2. Müəssisənin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.6.3. Müəssisənin struktur bölmələrinin əsasnaməsini təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir;

4.6.4. Müəssisənin iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir;

4.6.5. Müəssisənin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), həmçinin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını təsdiq edir;

4.6.6. cari və operativ məsələlər barədə tabe olduğu yerli icra hakimiyyəti orqanını məlumatlandırır;

4.6.7. bu Nümunəvi Nizamnamənin 3.1.9-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.6.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Müəssisənin xərclər smetasına dair tabe olduğu yerli icra hakimiyyəti orqanına təkliflər verir;

4.6.9. Müəssisədə yanğından mühafizə, əməyin mühafizəsi, sanitariya-gigiyena normalarına və qaydalarına riayət olunmasını təmin edir;

4.6.10. Müəssisənin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tabe olduğu yerli icra hakimiyyəti orqanına təkliflər verir;

4.6.11. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, Müəssisənin işçilərinin, vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərar qəbul edir;

4.6.12. Müəssisənin işçi heyətinin peşəkarlıq səviyyəsinin və ixtisaslarının artırılması sahəsində tədbirlər həyata keçirir;

4.6.13. Müəssisənin işçilərinin əməkhaqlarının verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.6.14. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Müəssisənin adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən yerli icra hakimiyyəti orqanının razılığı ilə Müəssisənin xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri Müəssisənin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqd, həmçinin müstəqil 5 (beş) faizinədək hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.6.15. özünün və Müəssisənin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunazidd qərarlarını ləğv edir;

4.6.16. Müəssisənin fəaliyyət istiqamətləri ilə bağlı komissiyalar və işçi qruplar yaradır;

4.6.17. Müəssisənin fəaliyyətinin təşkili ilə bağlı icrası məcburi olan daxili sərəncamlar və əmrlər verir;

4.6.18. fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.6.19. Müəssisədə kargüzarlığın və arxiv işinin aparılmasını təmin edir;

4.6.20. Müəssisənin inzibati binasının əsaslı və cari təmiri, habelə abadlıq işləri üçün müvafiq tədbirlər görür;

4.6.21. fəaliyyət istiqaməti üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.6.22. Müəssisənin əmlakından bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.6.23. Müəssisənin Nizamnaməsinə uyğun olaraq onun cari fəaliyyəti ilə bağlı digər məsələləri həll edir.

4.7. Müəssisənin direktoru və onun müavini Müəssisənin adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Müəssisənin nizamnamə kapitalı, əmlakı və maliyyə-təsərrüfat fəaliyyəti

5.1. Müəssisənin nizamnamə kapitalının məbləği _________ manatdır.

5.2. Müəssisənin əmlakı nizamnamə kapitalından, təsisçi tərəfindən verilmiş əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilən gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Müəssisə öz əmlakından yalnız Nizamnaməsi ilə müəyyən olunmuş məqsədlərə uyğun olaraq istifadə edir. Müəssisə balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Müəssisə qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra bu Nümunəvi Nizamnamənin 5.3-cü bəndi nəzərə alınmaqla, Müəssisənin fəaliyyətindən əldə edilmiş vəsait üzərində sahiblik və istifadə hüququnu məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə tabe olduğu yerli icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla həyata keçirir.

## 6. Müəssisədə uçot və hesabat

6.1. Müəssisə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

6.2. Müəssisə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlar tərtib və təqdim edir.

6.3. Qanunla müəyyən edilmiş hallarda Müəssisənin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edilir.

## 7. Müəssisənin ləğvi və yenidən təşkili

Müəssisənin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.